**“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il tarixli 28 noyabr tarixli 3623 nömrəli Sərəncamının icrasının təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il tarixli 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrasını tam və vaxtında təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm**

1. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il tarixli 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrasına dair Təqvim Planı təsdiq edilsin (əlavə olunur).

2. Energetika Nazirliyinin Aparat rəhbəri Zaur Məmmədov:

2.1. Təqvim Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin edib bu barədə yekun məlumatları energetika nazirinə təqdim etsin;

2.2. bu Əmrdən irəli gələn digər zəruri tədbirlərin yerinə yetirilməsini təmin etsin.

3. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin Aparatının aidiyyəti struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

15 dekabr 2022-ci il
№ F-135

Azərbaycan Respublikası energetika nazirinin
2022-ci il 15 dekabr tarixli F-135 nömrəli Əmri ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikası Prezidentinin 2022-ci il tarixli 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrasına dair**

**Təqvim Planı**

| Sıra № | Tədbirin adı | İcra vaxtı | İcraçılar |
|---|---|---|---|
| 1 | "Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil energetika siyasətinin müəllifidir" adlı dəyirmi masanın təşkil edilməsi. | fevral 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>*Elektrik və istilik enerjisi şöbəsi,*<br>*Enerji səmərəliliyi şöbəsi,*<br>Neft-qaz şöbəsi,<br>*Elektron idarəetmə sektoru,*<br>Mətbuat sektoru,<br>*Protokol xidməti sektoru,*<br>BOEMDA,<br>EMTA. |
| 2 | "Yaşıllaşdırma aksiyası"nın keçirilməsi. | mart 2023<br>sentyabr 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>Təminat şöbəsi,<br>Dövlət qulluğu və kadrlar şöbəsi,<br>Maliyyə şöbəsi,<br>Mətbuat sektoru,<br>*Protokol xidməti sektoru,*<br>BOEMDA,<br>EMTA. |
| 3 | Energetika Nazirliyinin Aparatı, yanındakı və tabeliyindəki orqanların əməkdaşları arasında "Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş mini futbol turniri"nin keçirilməsi. | aprel 2023 | Təminat şöbəsi,<br>Dövlət qulluğu və kadrlar şöbəsi,<br>Mətbuat sektoru,<br>*Daxili nəzarət şöbəsi,*<br>BOEMDA,<br>EMTA. |

| | | | |
|---|---|---|---|
| 4 | Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş toplantının keçirilməsi, Fəxri Xiyabanın ziyarət edilməsi. | may 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>Aparatın bütün struktur bölmələri,<br>*Protokol xidməti sektoru,*<br>BOEMDA,<br>EMTA. |
| 5 | Energetika Nazirliyinin Aparatı, yanındakı və tabeliyindəki orqanların əməkdaşları arasında "Heydər Əliyevin xatirəsinə həsr olunmuş şahmat turniri"nin təşkil edilməsi. | iyun 2023 | Təminat şöbəsi,<br>Dövlət qulluğu və kadrlar şöbəsi,<br>Mətbuat sektoru,<br>BOEMDA,<br>EMTA. |
| 6 | Jurnalistlər arasında "Azərbaycanda neft-qaz sənayesinin inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır" mövzusunda məqalə müsabiqəsinin keçirilməsi. | iyun-sentyabr 2023 | Zəminə Əliyeva,<br>Mətbuat sektoru,<br>Neft-qaz şöbəsi,<br>Maliyyə şöbəsi,<br>EMTA. |
| 7 | "Ulu öndər Heydər Əliyev siyasətinin elektroenergetika sahəsində bəhrələri" adlı dəyirmi masanın təşkil edilməsi. | oktyabr 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>*Elektrik və istilik enerjisi şöbəsi,*<br>*Enerji səmərəliliyi şöbəsi,*<br>*Elektron idarəetmə sektoru,*<br>Mətbuat sektoru,<br>BOEMDA,<br>EMTA. |
| 8 | "Ümummilli lider Heydər Əliyevin energetika sahəsinin inkişafında xidmətləri" mövzusunda ən yaxşı məqalənin yazılması üzrə tələbələr arasında müsabiqənin keçirilməsi. | noyabr 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>Neft-qaz şöbəsi,<br>*Elektrik və istilik enerjisi şöbəsi,*<br>*Enerji səmərəliliyi şöbəsi,*<br>Maliyyə şöbəsi,<br>Mətbuat sektoru. |
| 9 | Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Fəxri Xiyabanın ziyarət edilməsi və toplantının keçirilməsi. | dekabr 2023 | Aparat rəhbəri Z.Məmmədov,<br>Təminat şöbəsi,<br>Dövlət qulluğu və kadrlar şöbəsi,<br>Mətbuat sektoru,<br>*Protokol xidməti sektoru,*<br>BOEMDA,<br>EMTA. |

| | | | |
|---|---|---|---|
| 10 | Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı poster və ya videoçarxların hazırlanması və sosial media hesabları vasitəsilə paylaşılması. | 2023 | Mətbuat sektoru. |
| 11 | Heydər Əliyevə həsr edilmiş tədbirlərin mətbuatda işıqlandırılması. | 2023 | Mətbuat sektoru. |